**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NƏRMİN AZAD QIZI AZADGİL**

# XX ƏSR QAZAX NƏSRİNDƏ MİFOLOGİZM (O. BUKEYEVİN NƏSRİ ƏSASINDA)

**5717.01. - Türk xalqları ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Məmmməd İrac oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Elman Hilal oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Rafiq Yusif oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə:** **AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

Müdafiə "_29___" ___09_______ 2016-cı il tarixdə saat _____ Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131–Disserasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri. H. Cavid prospekti 115. şəhərciyi. AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ____" ________ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə elmlər doktoru,**
**professor:** **İmamverdi Yavər oğlu Həmidov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qazax yazılı ədəbiyyatının bazası kimi şifahi xalq yaradıcılığı nümunələri, mifoloji təfəkkür tərzi, epik örnəklər və s. xidmət etmişdir. Mifoloji etnik-mədəni ənənə və keyfiyyətlər, mifopoetik düşüncə qazax ədəbiyyatında hekayə janrının inkişafına müsbət təsir göstərmişdir. Abay Kunanbayevdən gələn ənənə S. Kubeyev, M. Auezov, S. Mukanov, Q. Musrepov, Q. Mustafin, İ. Esenberlin, T. Axtanov, A. Nurpeisov və başqalarının yaradıcılığında uğurla davam etdirilmişdir. Qazax yazılı ədəbiyyatının postsovet məkanında olan digər türk xalqları ədəbiyyatları kimi səciyyəvi xüsusiyyətləri onların əvvəl çar Rusiyası, sonra Sovet imperiyası tərkibində eyni siyasi rejimdə yaranıb inkişaf etməyə məruz qalması ilə bağlı idi. Bu müstəvidə yaradıcılığını tədqiqat obyektinə çevirdiyimiz tanınmış nasir Oralxan Bukeyevin əsərlərində hər iki dövrün xarakterik cizgiləri özünü əks etdirməkdədir.

70-80-ci illərdə daha da güclənən mifologizmə və folklorizmə müraciət meylləri, mifoloji və folklor motivlərinin ədəbiyyata gətirilməsi bütünlükdə sovet, o cümlədən də qazax nəsrində gözə çarpan hadisə idi. O. Bukeyev də onlara müraciət etməklə mifoloji motivləri özünəməxsus şəkildə mənalandırmağa çalışırdı.

Nasirin fikrincə, etnik-milli dəyərlər bütün dövrlər və zamanlar kəsimində aktual olmaqla daim özünəməxsus xüsusiyyətləri ilə seçilmişdir. Milli-mənəvi dəyərlər xalqın hər bir üzvünün yaşamasına təminat verməklə yanaşı, həm də insanların daxilində yarana biləcək xaosun qarşısının alınmasında əhəmiyyətli rol oynaya bilir.

O. Bukeyevin tədqiqat obyekti kimi götürdüyümüz əsərlərində qazax xalqının etnik həyatına, düşüncə tərzinə, adət-ənənələrinə, mərasimlərinə və s. kimi özünəməxsus detallara geniş yer verildiyini görürük. Bu yazıçının nəsrinin xüsusi tədqiqat obyekti kimi diqqət mərkəzinə çəkilməsi onun təqdim edilən formatda öyrənilməsini aktuallaşdırır. Azərbaycanda O.Bukeyevin özü və yaradıcılığı haqqında (məhdud sayda məqalələri çıxmaq şərti ilə) ayrıca tədqiqat obyekti kimi çıxış etməmiş, əsərlərinin milli ədəbiyyatşünaslığımızda bu formatda araşdırılması işin aktuallığını bir daha sübut etməkdədir.

**Mövzunun tədqiq tarixi.** Mifologiya, mədəniyyət, ədəbiyyat, tarix və onlar arasında olan çeşidli əlaqələr Azərbaycan, türk, rus, qazax, dünya Avropa, ədəbiyyatşünaslığında müxtəlif yönlərdən öyrənilmiş, çeşidli mülahizələr ortaya qoyulmuşdur. Azərbaycanda

M.Seyidov, Ə.Şükürov, M.Cəfərli, E.Əlibəyzadə, A.Nəbiyev, M.Qasımlı, S.Rzasoy, R.Əliyev, C.Məmmədov, T.Hatəmi, A.Hacıyev, A.Acalov, İ.Vəliyev; Türkiyədə A.Caferoğlu, Y.Çoruhlu, S.Gömeçi, B.Ögəl, A.Öndər, F.Olgünər, H.Tanyu, U.Murat; Rusiyada S.Klyaştornı, V.Qordlevski, A.Losev, Y.Lotman, Y.Meletinski, İ.Dyakonov, N.Qumilyov, V.Naydış, V.Toporov, S.Neklyudov, A.Lobok, O.Freydenberq, V.Propp, L.Potapov, qazax tədqiqatçıları Ç.Valixanov, V.Basilov, B.İbrayev, S.Kaskabasov, Y.Tursunov, dünyada və Avropada E.Taylor, E.Kassirer, L. Levi-Bryul, K.Levi-Stross, Q.Levinton, Y.Evola, M.Eliade və başqaları mifologiyanın tarixlə ibtidai insanların təfəkkürü, düşüncə tərzi, psixologiyası, həyat fəlsəfəsinə təsirini öyrənmişlər. Mifologiyanın belə çeşidli istiqamətləri tədqiqat obyekti kimi götürdüyümüz mövzunun bütün tələblərini ödəyə bilməsə də, biz mifologiyanın bədii əsərin yaranmasına, onun ideya, mövzu, obrazlar sisteminə özünəməxsus şəkildə təsirini ədəbiyyatşünaslıqda mifologizmlərlə əlaqəli şəkildə tədqiq etməkdə faydalıdır. Belə ki, artıq neçə onilliklərdir ki, bədii əsərlərdə istifadə olunan mifoloji motiv, obrazlar və s. probleminin araşdırılması sahəsində müəyyən nəzəri konsepsiya formalaşmaqdadır. Mifin, mifologiyanın, mifologizmin həyatın digər sahələri ilə yanaşı, həm də ədəbiyyatla, o cümlədən müasir nəsrlə müxtəlif səpkili əlaqələrin mövcudluğunu müəyyənləşdirməklə qazax yazıçısı Oralxan Bukeyevin əsərləri göstərilən formatda nə qazax ədəbiyyatşünaslığında, nə də milli ədəbiyyatşünaslığımızda təhlil obyektinə çevrilmədiyindən diqqətimizi məhz bu sənətkarın əsərləri üzərində cəmləşdirməyə çalışmışıq. O. Bukeyev yaradıcılığı istedadlı tənqidçi A. Əmrahoğlunun məqalələrində M. Süleymanlının yaradıcılığı ilə müqayisləi-tipoloji planda “Müasir Qazax və Azərbaycan nəsrində mifologizm” adı altında nəzərdən keçirilmişdir. Bundan başqa bu tədqiqat işinin müəllifi O. Bukeyevin bir neçə əsərini (“İldırım izi”, “Kerbuqu”, “Bura”, “Ardak”) dilimizə tərcümə edərək “İldırım izi” adı altında Azərbaycan oxucularına çatdırmışdır. Qeyd olunanlar O. Bukeyev yaradıcılığının müxtəlif tərəfləri haqqında təsəvvürlər yaratsa da, onun əsərləri daha dərinləşdirilmiş və konsepsiyalaşdırılmış şəkildə tədqiq olunmağa layiqdir.

**Dissertasiya işinin predmeti və obyekti** XX əsr qazax ədəbiyyatının orijinal nümayəndələrindən biri olan O.Bukeyevin yaradıcılığıdır. Əsərdə tədqiqat işinin predmeti yazıçının “Qar qızı”, “İldırım izi”, “Qışqırıq”, “Aypara Ana haqqında hekayət”, “Uşaqlıq

illərinin əks-sədası", "Ardak", "Cavab ver, dayçam", "İnsan-Maral", "Yetim köşək", "Bura", "Oliara", "Kerbuqu" kimi əsərləri çıxış edir. Tədqiqat işinin başlıca obyekti O. Bukeyevin nəsr əsərlərində təsvirini tapmış qazax həyatı, doğma insanlar, onların məişəti, inamları, inancları və bu əsərlərin mahiyyətinin açılmasında yardımçı ola biləcək mifologizmin müxtəlif təzahür formalarıdır.

**Dissertasiyanın məqsədi və vəzifələri.** XX əsr qazax ədəbiyyatının görkəmli nümayəndəsi O.Bukeyev yaradıcılığında mifologizm problemini araşdırıb ortaya çıxarmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün dissertasiyada qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

-mifik təfəkkürün, cəmiyyətin, həyatın normal gedişini, inkişafını tənzimləyici funksiya qazana bilmə problemini araşdırmaq;

-insanların təbiət və cəmiyyətlə qarşılıqlı əlaqələrinin müəyyən davranış normaları üzərində qurulmasının mühüm əhəmiyyət kəsb etməsini təhlil etmək;

-mifoloji inamın və inancın aparıcı mövqedə dayandığı davranış normalarının bədii həyatdakı müxtəlif məkanlarda (evdə, evdən kənarda, dağlarda, səhralarda, çöllərdə, düzlərdə və s.) özünəməxsus davranış normalarının təzahür etməsi və ortaya çıxarılan problemi müəllifin bir sıra əsərlərində ("Qar qızı", "Qışqırıq" və s. povestlərində) incələmək;

-yazıçının əsərlərində ənənəvi davranış normalarının müxtəlif təzahür formalarını müəyyənləşdirmək, onların cəmiyyətin davranış normalarında ictimai rəyə təsir etdiyini salmaq;

- cəmiyyətdən kənardakı məhrəm məkanlarda-ailədə, qohumlar arasında və s. davranış normalarında etnik-milli adət-ənənələrin mühümlüyünü araşdırmaq;

-yaradıcılığında təbiət-mədəniyyət qarşıdurmasının görünən və görünməyən, gündəlik həyatda heç də asan üzə çıxarılmayan tərəflərini işıqlandırmaq;

- O.Bukeyev nəsrinin bəzi tərəflərini qorxu konteksində araşdırmaq;

- yazıçısının əsərlərində mifoloji inamın etnik-milli psixologiyaya uyğun şəkildə ifadəsinin təhlil etmək və s.

**Dissertasiyanın elmi yeniliyi.** İndiyə qədər Azərbaycan ədəbiyyatşünaslığında Oralxan Bukeyev, yaradıcılığında mifologizm, stereotip davranış normaları, etnik-milli xüsusiyyətlər, mifoloji inam və motivlərdən istifadə və s. kimi problemlər nə diqqət mərkəzinə

çəkilməmiş, nə də araşdırma obyekti olmamışdır. O. Bukeyev ədəbi irsində mifologizmdən istifadə ilk dəfədir ki, Azərbaycan ədəbiyyatşünaslığında belə bir formatda öyrənilir.

O.Bukeyev nəsrinin özünəməxsus ideya-məzmun xüsusiyyətlərinə uyğun mifoloji motiv və obrazlar, obrazların fərqli məkan və zamana uyğun stereotip davranış normalarının milli həyat və təfəkkürlə, etnik-milli özünəməxsusluqla bağlılığı, obrazların zahiri portret təsvirindən daha çox mənəvi aləmin psixoloji yaşantıların işıqlandırmasına, baş qəhrəmanların, epizodik personajların səciyyəvi cəhətlərinin, hiss və duyğularının, real yaşantılarının məhz mifoloji inamla bağlılığının ön plana çəkilib araşdırılması və s. işin elmi yeniliklərini təşkil edir.

**Dissertasiyanın nəzəri-metodoloji bazası.** "XX əsr Qazax nəsrində mifologizm (O. Bukeyevin nəsri əsasında)" mövzulu dissertasiya işinin hazırlanmasında və s. mövcud olan nəzəri-metodoloji araşdırmalardakı müddəalardan bəhrələnilmiş, qazax, Azərbaycan və dünya ədəbiyyatşünaslarının nəzəri fikirlərinə istinad edilməklə tarixi-müqayisəli və semiotik metodikaya əsaslanan tədqiqatlardan istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyadan Azərbaycan və qazax ədəbi əlaqələrinin öyrənilməsində, O. Bukeyev nəsrinin mənbə, motiv və obrazlar sisteminin təhlilində, yazıçının povest və hekayələrinin özünəməxsus xüsusiyyətlərinin araşdırılmasında, çağdaş ədəbi-estetik fikrin müqayisəli-tipoloji xarakterli əsərlərin oxşar və fərqli keyfiyyətlərinin üzə çıxarılmasında və s. istifadə oluna bilər. Dissertasiyanın müddəlarından universitet tələbələri-bakalavrlar, magistrlər, doktorantlar, mütəxəssislər və b. faydalana bilərlər. Eyni zamanda ondan türk xalqları ədəbiyyatının öyrənilməsində, dərslik və dərs vəsaitlərinin hazırlanmasında, zəruri mənbə kimi istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəa və nəticələri müəllifin nəşr etdirdiyi bir sıra məqalələrdə, beynəlxalq və respublika miqyaslı elmi-praktik konfranslardakı məruzə və çıxışlarda, müxtəlif elmi-nəzəri məcmuələrdəki materiallarda öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi "Giriş", iki fəsil, "Nəticə" və "İstifadə olunmuş ədəbiyyat" siyahısından ibarətdir.

# TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

"Giriş"də tədqiqat işinin aktuallığı, mövzunun tədqiq tarixi, predmeti və obyekti, məqsəd və vəzifələri, dissertasiyanın elmi yeniliyi və metodoloji bazası, nəzəri və praktik əhəmiyyəti əsaslandırılmış, işin aprobasiyası və strukturu müəyyənləşdirilməmişdir.

**"Mifoloji düşüncə və qazax etnik-milli təfəkkürü"** adlanan fəsil üç yarımfəsildən ibarətdir. Bu fəslin **"Qazax etnik-milli təfəkküründə türk mifoloji inanclar sisteminin yeri"** adlanan yarımfəsildə ədəbi prosesin tarixi varisliyi və tipoloji qanunauyğunluğu ədəbiyyatşünaslıq elmini daim düşündürən problemlərdəndir. Ədəbi prosesin dinamikası və tarixiliyin inkişafı ədəbi ənənə probleminin məzmununun dəyişməsinə, ön plana bir sıra başqa məqamların çıxmasına səbəb olur. Belə yanaşma nəticəsində son dövrlər müasir bədii mədəniyyətin xüsusiyyətləri ilə sıx əlaqədə olan mifologizm problemi daha tez-tez gündəmə gəlir. Bu problemi qazax nəsri kontekstində araşdırmaq da maraq doğurur.

Yazılı ədəbiyyatla müqayisədə qazax folkloru daha qədimliyi ilə yanaşı, həm də forma və məzmun baxımından olduqca zəngindir. Mifoloji inanclar sistemi, folklor, qazax xalqının ictimai fikir tarixində əsaslı rol oynamışdır.

Qazax ədəbiyyatı, o cümlədən qazax nəsrinin əksər tərəflərini folklor motivi, xalq həyatının təsviri ilə bağlıdır. Eyni zamanda mifologizm qazax epik təfəkkürünün, etnik düşüncənin etnopsixoloji əsası kimi çıxış etməkdədir.

Mifə müraciət əski yaddaşa müraciətdir. Çünki bəşər övladının tarixində nə varsa - hamısı yaddaşdan-yaddaşa ötürülməklə yaşadılmaqdadır. Yaddaş həm yadda saxlayan, həm də saxlanılandır. Yəni mədəni ənənə yaşayan və yaşadan yaddaşdır. Mifoloji düşüncə etnik-mədəni həyatın bütün qatlarına təsir edir. Mifoloji düşüncədə gerçəkliyə özünəməxsus yanaşma tərzi mövcud olduğundan türk mifoloji düşüncəsində türk cəmiyyətinin psixologiyası, təcrübəsi, duyğu və düşüncəsi əksini tapmışdır.

Qazax ədəbiyyatında mifologiyaya meylin geniş vüsət alması 70-80-ci illərdə təsadüf etməklə ona yeni keyfiyyət qazandırmağa başladı.

Qazax ədəbiyyatının görkəmli nümayəndələrindən olan Oralxan Bukeyevin povest və hekayələrində yer alan simvolik

ümumiləşdirmələr özünəməxsus rənglər yaratmaqla mifologiyaya bu dövrdə daha çox maraq göstərmişdir. Onun 1970-ci ildə Alma-Atada nəşr olunmuş “Kamcuger” adlı hekayə və povestlər kitabı O.Bukeyev imzasını oxuculara doğmalaşdırmışdır. Bu dövrdən başlayaraq onun bir-birinin ardınca işıq üzü görən “Dəstələr” (1971), “Hardasan qaşqalı dayçam” (1973), “Buz dağı” (1975), “Yuxusuzluq” (1987) və s. kimi əsərləri O. Bukeyevi bir nasir kimi daha da məşhurlaşdırmışdır. O, nəsr nümunələri ilə yanaşı, həm də maraqlı dram əsərləri müəllifi kimi də tanınmışdır. Sənətkarın “Mənim dayçam”, “Qarşıdurma”, “Dekabr çovğunları”, “Qar qızı”, “Səhvin acı dadı” və s. kimi pyesləri nəinki Qazaxstandakı mərkəz və vilayət teatrlarında, həm də xarici ölkələrin səhnələrində tamaşaya qoyulmuşdur.

O.Bukeyevin eyniadlı povestlərinin motivləri arasında “İnsan-Maral” (1985) və “Şeytan körpüsü” (1986) kinofilmləri çəkilmiş, “Kerbuqu” hekayəsi əsasında isə “Boz maral” baleti qazax səhnəsində canlandırılmışdır. Əsərləri rus, ingilis, alman, çex, slovak, bolqar, ərəb, çin, yapon və bir sıra digər dillərə, o cümlədən tərəfimizdən bir neçəsi Azərbaycan dilinə tərcümə edilmişdir.

O. Bukeyev nəsrində birbaşa mifoloji mövzuda yazılmış əsər yoxdur. Onun yaradıcılığında diqqət çəkən əsas cəhətlərdən biri bundan ibarətdir ki, qazaxlarda dəvəyə fərqli münasibət nümayiş etdirilir. Bu, xalqın etnik düşüncəsi ilə bağlıdır. Digər etnoslarda bu heç də belə deyildir. Məsələn, ruslarda dəvə heç vaxt müsbət emosiya yaratmamış, əksinə o insanın kobudluq, tərbiyəsizlik kimi qüsurlarını təcəssüm etdirmişdir. Dünyanın bir çox xristian etiqadlı etnoslarında dəvəyə münasibətin əsasında ilk növbədə İsa peyğəmbərin ondan metafora kimi istifadə etməsi dayanır: “Dəvənin iynənin deşiyindən keçməsi varlı insanın cənnətə düşməsindən daha rahatdır”[1].

Müsəlman etiqadlı etnoslarda dəvəyə ehtiramlı münasibət dini inamla bağlıdır. Əksər müsəlmanlar dəvənin cənnətdən gəldiyinə inanmış və müqəddəs Məhəmməd peyğəmbər ağ dəvədə gəzdiyi söylənilmişdir[2]. Orta Asiya türklərində, o cümlədən, qazaxlarda dəvə

---

[1] Уваров М.С. Бинарный архетип. Эволюция идея антиномизма в истории европейской философии и культуры. СПБ.: Изд-во БГТУ, 1996, с. 48.

[2] Лосев А.Ф. Философия. Мифология. Культура. М.: Политиздат, 1991, с.62.

dini inama görə müqqəddəs heyvan hesab olunsa da, etnik inamda fərqli tutum da əldə edə bilmişdir.

Orta Asiya türk xalqlarında dəvə kosmoqonik qüvvələrlə bağlıdır. Məsələn, özbəklərdə onun hamisi Sultan baba, türkmənlərdə Veysəl qara, qazaxlarda isə Oysıl qaradır. Buna görə də dəvə şah heyvan hesab edilir. Qazaxlarda ən qiymətli qurban dəvə hesab olunmuşdur. Digər Orta Asiya türkləri kimi onlar da inanmışlar ki, kişi gücünün təcəssümü olan dəvə qadının hamiləlikdən azad olmasına kömək edir (özbəklər doqquz aya uşağı dünyaya gətirə bilməyən qadının üstündə dəvə tükü yandırırlarmış və ya dəvə tükünün üstündən hoppandırarlarmış; hamilə vaxtı əri olmadan dəvə əti yeyən qadın uşağı vaxtından çox gec dünyaya gətirərmiş).

Dəvə qazaxlarda iki baxımdan-sərt, ağır şəraitə dözümlü, faydalı, böyük məsrəf, xərc və qulluq tələb etməyən ev heyvanı kimi və yuxarıda qeyd edilən mənalarda mifoloji inamlarda yaşayan heyvan kimi böyük əhəmiyyət kəsb etmişdir. Real həyatda və mifoloji düşüncədə oynadığı rolu nəzərə alındıqda bədii ədəbiyyatda, o cümlədən O.Bukeyev yaradıcılığında dəvə obrazına müntəzəm müraciət olunması təsadüfi sayılmamalıdır. Səciyyəvi nümunə kimi Ç. Aytmatovun "Gün var əsrə bərabər", Elçinin "Ağ dəvə" romanlarının da episentrində məhz dəvə dayandığını söyləyə bilərik.

I fəslin ikinci yarımfəslində **"Mifologizm və yazılı ədəbiyyatda obrazlararası münasibətlər"** mövzu kimi təhlil olunur. Burada problem O. Bukeyev nəsrinin qəhrəmanları və obrazları olan insanların sərt təbiət qoynunda yaşamağa məcbur olduqları kontekstdə öyrənilir. Elə buna görə də təbiətin sərtliyi insanların həyatına, xasiyyətinə, əxlaqına və s. təsir göstərir. Təbiət və insan onun əsərlərində sərtlik baxımından bir-birinə çox bənzəyir. Bununla belə, yazıçı təbiəti həm də insanlar tərəfindən tam öyrənilməmiş bakirə bir məkan kimi təsvir edə bilir. Nəticədə O.Bukeyevin təsvirində təbiət insanın əski çağlardakı kimi dünyanı dərkinin rəmzinə çevrilir. Yazıçı "Kerbuqu" əsərində maralı, "Bura" əsərində isə dəvəni əsas obraz kimi götürür. Hər iki əsərdə heyvan insaniləşdirilir, başqa sözlə desək, insani düşüncələr, yaşantılar, insana xas təklik-tənhalıq ağrısı, həyatı dərk etmək cəhdinin zəruri acısı, ən başlıcası isə bununla barışmaq əzabı və s. ona şamil edilir.

"Bura" əsərində eyni adlı dəvə insanların qəddarlığına, rəhmsizliyinə və s. dözməyərək doğma aulu tərk edir. Onun bu qərara gəlməsinə anasının ətlik üçün gözünün qabağında kəsilməsi, ölüm

qabağı anasının göz yaşlarını, qardaşlarının müxtəlif aullara paylanmasını unuda bilməməsi səbəb olur. Dəvələr insan həyatında at, öküz və s. heyvanlar kimi praktik-utilitar funksiya daşımaqla yanaşı, həm də eyni zamanda müəyyən mənada xilaskarlıq missiyasını da yerinə yetirmişlər: sahiblərini ölümdən qurtarmışlar, uşaqlarına süd vermişlər və s.

Bura pis insanlarla yaxşı insanları yalnız bir meyarla seçə bilir. Pis adamlar o adamlardır ki, "onlarda Abişin doğma qoxusu yoxdu".[1]

O.Bukeyevin "Yetim köşək" adlı əsərində də dəvə obrazı rəmz rolu oynayır. "Bura"dan fərqli olaraq, bu əsərdə dəvədən danışılmır. Əsərin qəhrəmanı memar layihəsi əsasında salınmış şəhərə gəlir. Əsərdə göstərilir ki, ulu əcdadların şüurlu şəkildə yaşadıqlarını müasir insanlar şüuraltı qatın təsiri ilə yaşayırlar. Bu baxımdan miflər, mifoloji inam və motivlər də söz sənətində iki formada iştirak edir: mifologiya həyatın özü kimi və mifologiya həyat nümunəsi kimi təsvirlərdə ortaya qoyulur.

Miflərdə özünü göstərən çoxsaylı mifoloji dünya intuitiv və ya dərk oluna bilən obrazlardır. Mifologiya motivi ifadəsi altında müəyyən mifoloji mövzu qəbul olunur ki, Bu əsərdə mifoloji motiv daxili quruluş, ilkin obraz və modeldir. Simvolun son nəticədə mifə gətirib çıxarması mifin simvoldan yarandığını göstərir.

O. Bukeyevin "Aypara Ana haqqında hekayət" adlı povestində adət-ənənələrlə yaşayan bir aulun həyatındakı səciyyəvi epizodunun təsvirini verərkən döyüşlərin birində cunqarların tobıtkılara sarsıdıcı zərbələr vurduğundan danışır. Aypara ananın oğlu Kaydos öldürülür, arvadı və əkiz uşağı əsir götürülür. Ağbirçək qadın ana fəhmi ilə başa düşür ki, uşaqları əsirlikdən hələ at belinə təzə-təzə minməyi öyrənən Candos xilas edə bilər. Povestin bütün strukturu xilaskar mövzusundakı mifləri xatırladır.

"Uşaqlıq illərinin əks-sədası" adlı povestin qəhrəmanı da təxminən yuxarıdakı povestin qəhrəmanını xatırladır. Onların əsas fərqi müxtəlif zamanlarda və məkanlarda yaşamalarındadır. Nurlan müharibədən sonrakı illərdə məktəbdə oxuyan bir yeniyetmədir. Həyat şəraiti ağırdır. Kişilərin böyük əksəriyyəti müharibədən qayıtmayıb, qayıdanların da çoxu atası kimi şikəstdir. Buna görə də uşaqlar burada oxumaqla yanaşı, böyüklərə böyüklərdən artıq işləməklə kömək

[1] Bukeyev O. İldırım izi ilə. Bakı, Elm və təhsil, 2012, s. 62

edirlər. Bir növ onlar uşaqlıq dövrünü yaşamadan uşaq vaxtından böyükləşmək məcburiyyətində qalması müəllif tərəfindən maraqlı boyalarla təqdim olunur.

Yazıçının "Ardak" əsərində də uşaq obrazlarına geniş yer verilmişdir. Koce doğmalardan inciyərək öz aulunu tərk edir və insan yaşamayan bir məkanda məskən salır. Markogöl gölünün ətrafında yaşamağa başlayır və iyirmi beş il burada ömür sürür. Olduqca nadir hallarda onların yanına həmyerlilərindən və ya qohumlarından gələn olur. Əsərdə maraq doğuran cəhətlərdən biri də bundan ibarətdir ki, anası kimi qızın özü də sevginin nə olduğunu bilmir. Bu baxımdan ana kimi qız da Həvvanın taleyini yaşayır. Ardakın anasından və Həvvadan bir fərqli cəhəti vardır ki, bu Saliklə fiziki təmasdan sonra o, dünyaya uşaq gətirir.

O. Bukeyev mifoloji obrazlardan yararlanmaqla insanların faciələrində onların özlərinin təqsirkar olmasıdır. O. Bukeyevin "Qar qızı" və M. Süleymanlının "Şeytan" əsərlərində şeytan insana öz pis əməllərini həyata keçirərkən adınından istifadə etməyə məhkum olmuş qüvvə kimi göstərilməsidir. Əslində şeytanlaşan insan özü öz nəfsinin qurbanıdır. İnsan insan ola bilmədikdə daha asan olana qaçır və şeytan olmağa üstünlük verir. A.Məmmədov haqlı olaraq yazırdı: "Şeytan" əsərində də şeytan insanın nəfsidir, pis əməlləri-qeybəti, naşükürlüyü, acgözlüyü, xəyanəti, xəbisliyidir. Şeytan bütün varlığıyla insanın özüdür. Mövludun əsərlərində mif dünyası ilə real dünya arasındakı sərhəd itir, biri başlayıb, biri qurtarmır, biri digərinin içindən gəlir və biri digərinə zəmin hazırlayır, tamamlayır[11].

Çingiz Aytmatovun "Ağ gəmi" əsərində isə Qar qızı-xilaskar rolunu adsız uşağın öz xəyalında canlandırdığı və bir gün ona qovuşub xilas olacağı ümidi ilə yaşayan Ağ gəmi əvəz edir. Daşlarla danışan, ot-ələflə oynayan, buludlarla dərdləşən uşağın həyatı təbiət və səma kimi sonsuzluq və qeyri-müəyyənlikdən ibarət olur.

Elçinin "Ağ dəvə" romanında da mifik obraz kimi çıxış edən Ağ dəvə kökəqayıdışın, milli özünüdərkin, etnik-milli xüsusiyyətlərin, keçmişi, yaddaşı qorumağın simvolu kimi çıxış edir. Əsərdə hadisələr canlandıqca zaman və məkan müəyyənliyi də dəyişir, eyni anda əlli il əvvəl və əlli il sonra yaşanır və yazı mizinin başında bir neçə saatda yaşanır. Ancaq bu bir neçə saat da, bu yazı mizi də sonsuzluğu, hüdudsuzluğu ehtiva edir.

---

[1] Məmmədov A. Dünənimin sözləri. Bakı, Elm və təsil, 2006, s.. 333.

Bütün bunlar göstərir ki, xalqın yaddaşı məhz miflərdə, əfsanələrdə, nəğmələrdə yaşayır. Nəğmə kökdən, keçmişdən gələn səs olduğuna görə məhv edilmiş yaddaşa belə təsir etmək gücünə malikdir. Bu mənada nəğmələr keçmişin xatirələrini özündə yaşadır, bəzən unudulanları xatırladır, bilinməyənlərə aydınlıq gətirir.

Beləliklə, bu yarımfəsildə biz O.Bukeyevin yaradıcılığnda obrazlararası münasibətləri həm yazıçısının "Kerbuqu", "Bura", "Yetim köşək", "Aypara ana haqqında hekayət" və "Ardak" əsərləri əsasında, həm də M.Süleymanlının "Şeytan" povesti, Elçinin "Ağ dəvə" romanı, Ç.Aytmatovun "Ağ gəmi" povesti ilə müqayisəli şəkildə təhlil edərkən O.Bukeyevin əsərləri üçün xarakterik olan mifologizmin təzahür məqamlarına diqqət yetirərək bu müəllifin sözügedən əsərlərinin hamısında mif dünyasının insanların özünəməxsus münasibət və baxışlarının bədii təsvirlərində xüsusi yer aldığının şahidi oluruq.

Tədqiqat işinin I fəslinin üçüncü yarımfəslində O.Bukeyev yaradıcılığını **"Mifoloji inam və qorxu psixoloji yaşantı hissi kimi"** müstəvisində nəzərdən keçirməyə səy göstərmişik. Burada ilkin mərhələdə qorxu (həm də heyrət) əsasında formalaşan mifologiya mədəniyyətin yaranması ilə tədricən cəmiyyətdə və insanlararası münasibətlərdə özünəməxsus qadağalar sistemi olan tənzimləyici funksiya qazanmasından danışmışıq. Maraqlıdır ki, Tənzimləməni qorxu və ayıb (utanc) hissi ilə əlaqələndirən Y.Lotman bunları "biz"ə və "onlar"a təsiri baxımından fərqləndirirdi. O, "Mədəni "biz" daxilində ayıb normaları fəaliyyət göstərən kollektiv, qorxu və məcburiyyəti isə bizim "başqalarına" münasibətimiz kontekstində müəyyənləşdirir"[1].

Oralxan Bukeyev əksər qəhrəmanlarını təbiətin sərt qoynunda təsvir edir. "Qışqırıq" povestində təbiət yalnız təbiilik, bakirəlik, mədəniyyəti hələ öz qanunlarına uyğunlaşdıra bilmədiyi məkan deyildir, həm də hansı amansızlığı gerçəkləşdirəcəyi əvvəlcədən müəyyənləşdirilməyən qorxu mənbəyidir. "Qışqırıq" əsərinin qəhrəmanı Aman "ölülər aulu"[2] adlandırılan məkanda hadisələr qışda baş verir. Povestdə qış fəslinin seçilməsi təsadüfi deyildir.

---

[1] Лотман Ю.М. Статьи по семиотике и топологии культуры. Избр. статьи. В 3-х т., т.1. Таллин: Александра, 1992, с. 164. Бокоев О. След молнии. М.: Сов. писатель, 1984, с. 5.

Qış insanları mümkün ola biləsi ən ağır sınağa çəkməyə imkan yaradan əsas fəsillərdən biridir. Aula o qədər qar yağıb ki,“insanlar... ulu sükutun ağuşunda boğulurlar”. “Dağ dərəsində yerləşən aulun elə anlaşılmaz və yazıq bir görkəmi var idi ki, bütün işləri ilə birlikdə aulu sanki qar deyil, sıx qar örtüyü ilə örtən qara qüvvələr qəflətən yaxalamışdı və bu qarın altından görünənlər, dünənə kimi əhəmiyyət və mənası olanlar indi sadəcə olaraq həyatın tör-töküntüsü təsirini bağışlayırdı[1].

Yol mifologiyada, folklorda və yazılı ədəbiyyatda xüsusi, rəmzi məna kəsb edən məkanlardan biridir. “Qışqırıq” povestində yolun ən təhlükəli hissəsi də məhz Şeytan körpüsüdür. Yolun Şeytan körpüsünə qədərki hissəsi insanın keçməsi həddindən artıq çətin qarla örtülübdür. Şeytan körpüsünü keçmək ölüb-dirilmək, şeytana qalib gəlmək, nəticədə diriltmək missiyasını qazanmaqdır. Şeytan körpüsü aulda qorxu mənbəyidir və igidliyin-kişiliyin təsdiqinin meyarıdır. Aulda danışılanları nəzərə almadan bunların hətta bir ailənin timsalında gerçək olduğunu görmək mümkündür.

Oğlunun bu körpüdən keçmək istədiyini öyrənən ata həm təlaşlanır, narahat olmağa başlayır (“Təki o, Şeytan körpüsünü qorxmadan keçsin”), həm də etiraf etmədiyi halda daxilən sevinir. Amanın qışqırığı qorxuya qalib gəlшк, bu qorxudan bir nəslin sabahı azad olunur.

Tədqiqat işinin II fəsli **“Mifoloji inam və obrazların psixoloji yaşantıları”** adlandırılmaqla dörd yarımfəsildə nəzərdə keçirilmişdir. II fəslin birinci yarımfəslində biz “**Mifoloji inam və obrazların mənəvi aləmi”** problemini təhlillərə cəlb etmişik. Burada göstərməyə çalışmışıq ki, miflər keçdiyi tarixi yolda müəyyən araşdırmalar nəticəsində məramını, məqsədini, hətta məzmununu da dəyişir. Dövrün formasiyalarının dəyişməsi mifə də təsir edir və belə ziddiyyətlər bədii ədəbiyyata zəngin materiallar verir. Bununla belə “mif bədii əsər deyildir”. Mif qurtardıqda bədiiləşmə başlayır. “Mif ritualın danışılan hissəsi ritualda oynanılanın danışılmasıdır.

---

[1] Лотман Ю.М. Статьи по семиотике и топологии культуры. Избр. статьи. В 3-х т., т.1. Таллин: Александра, 1992, с. 164. Бокоев О. След молнии. М.: Сов. писатель, 1984, с. 6.

Mif, bir tərəfdən, insanın təbiət üzərində ilk qələbəsidirsə, digər tərəfdən, geri qalmış qəbilələr tərəfindən xüsusi adət və ənənənin izahı üçün mif uydurulmasıdır.

Hər bir sistemin özünəməxsus və mifin özü qədər universal mifik qəhrəmanları, tabuları və s. var. Bütün bunlar etnik-milli şüuru, etnik psixologiyanı formalaşdırır. Müxtəlif xalqları da bir-birindən fərqləndirən məhz etnik-milli şüurdur. Etnos özünü anoloji birliklərdən fərqləndirərək məhz olduğu kimi dərk edən insan məcmusudur.

Mif insan düşüncəsinin genetik strukturunun və ümumən etnik-milli psixologiyanın əsasını təşkil edir. Mifik düşüncə vahidi kimi mifin bütün mahiyyəti və mövcudluğu inama bağlanır. Mif nə qədər ki, mif kimi qavranılır, o, mif olaraq qalır və ya mif nə dərəcədə qeyri-həqiqət olmasından asılı olmayaraq, yarandığı və yaşadığı yerdə həqiqət kimi qəbul olunan hekayədir.

Mif və onun əsasını təşkil edən inam dünya haqqında təsəvvürlər sistemi, müasir mədəniyyətin genetik kodu kimi müəyyənləşir.

Mifologiya sənətkarın yaradıcılığında iki formada iştirak edir: *birinci,* mifoloji motiv, inam, obraz və s. məqsədli və qeyri-ixtiyari) konkret əsərin mifoloji qatını təşkil edir; *ikinci,* əsasında mifoloji inamın dayandığı davranış normalarından cəmiyyət-insan və insan-insan arasındakı münasibətlərin ifadə vasitəsi kimi istifadə olunur.

Fəslin ikinci yarımfəslində biz **"O.Bukeyev yaradıcılığında yuxugörmə və ildırım motivi"**ni nəzərdən keçirməyə səy göstərmişik. O. Bukeyevdə bütövlükdə sırf mifologiya bazasında yazılmış hər hansı bir əsər mövcud deyildir. Onun bir sıra əsərlərində ("İldırımın izi", "Qar qızı", "Qışqırıq" və s.) sadəcə olaraq mifoloji inamdan və motivdən istifadə olunmuşdur. Bununla belə bu əsərlərdə mifologiyanın müxtəlif formada təzahürünə tez-tez rast gəlinir.

"İldırım izi" əsərində illər sonra aula qayıdan Kiyalxan qəribə bir yuxu, yuxuda da al-qırmızı paltarlı qızı görür və ondan insanları fəlakətdən qurtarmağın yolu kimi ildırım yayını tapıb ən uca dağ zirvəsinə qaldırmaq lazım olduğunu öyrənir.

Əsərdə iki şey-yuxu və ildırım diqqəti cəlb edir. Bunların hər ikisini də əsərdə bədii detal kimi də götürmək mümkündür. Yuxuya ən qədim dövrlərdən insan taleyinə təsir göstərən inam obyekti kimi baxmışlar.

Yuxu şüurlu təsəvvürün, bişüurun məhsuludur. O, ürəyədamma, gözəgörünmə, eymənmə, göstərmə kimi psixoloji-bədii dəyərlərin və kiçik janrların yaradıcılığı prosesində fəal iştirak etdiyi kimi, onların sonrakı inkişaf mərhələlərində də müəyyən rol oynamışdır. Bununla belə yuxu başqa paradiqmalardan fərqli olaraq sintetik törəmə mərhələsi keçmişdir. O insanın psixoloji duyğu və düşüncələri, hissləri, emosiyaları, eləcə də, qavrama duyğuları –eşitmə, görmə, hiss etmə, iybilmə, dadbilmə ilə üzvü surətdə bağlıdır. Prof. A. Nəbiyev hesab edir ki, şüurlu düşüncədə Ruh yeni bir funksiyada özünü göstərməyə başlayır...Yuxu yaddaş ötürmələrinin transferinin ilkin açarlarındandır[1].

Yuxugörmə simvolik xarakter daşıyır və yuxuların bütün izahı real həyatın deyil, məhz yuxunun məntiqinə əsaslanır. "Miflər yuxudan oyanmağa çalışan ilkin insanların gördükləri yuxu idi". Müxtəlif mifoloji motivlər bu mənada yuxuların epizodu kimi qəbul oluna bilər.

Yuxu motivi "İldırım izi" əsərində əlavə, bədii bir ornament deyil, obrazın taleyi, əsərin ümumi ideyası ilə birbaşa bağlı vasitədir. Çünki yazıçı öz məqsədini məhz Kiyalxanın yuxusu ilə həyata keçirməyə çalışır və əsər məhz elə bu yuxugörmə simvolikası üzərində qurulur.

O. Bukeyevin bu əsərində ildırım oxu fərqli insan xarakterlərini, müxtəlif taleli insanların hamısını mifoloji amil kimi eyni dərəcədə ehtiva edir. İldırım oxu nə qədər insanlara inanılması mümkün olmayan möcüzə kimi görünsə də, onun əsas funksiyası insanlığa xidmət etməkdir. Dünya mifologiyasında ildırım əsas mifoloji motivlərdən biridir. Qədim mifoloji inamlarda və dini etiqadda ildırım daim Tanrının simlovu kimi götürülmüşdür.

1. İldırımın digər bir mifoloji cəhəti isə onun də yaradıcı xarakter daşımasıdır. Onun işıq şəklində görünməsi qaranlığın qənimi kimi dərk olunmasıdır. Əsərdə ildırım xəbərdarlıq və nicat vasitəsidir. Kim onun izini tapmağa dağın zirvəsinə çıxartsa, bəşəriyyəti müharibə fəlakətindən xilas edə bilər.

Mifologiyanın həm dünyanı və insanı yaratmaq, həm də onları qorumaq modelinin universal, ümumi mahiyyəti O. Bukeyevin

---

[1] Nəbiyev A. Folklor yaradıcılığında fasiləsiz transfer və yuxu paradiqmaları. Bakı: Elm və təhsil, 2011, s.17-18.

“İldırım izi” əsərində  qabarıq əksini tapmışdır. Burada “İldırım izi” əsərində istifadə olunmuş mifoloji ildırım motivi və hekayənin baş qəhrəmanı Kiyalxanın timsalında yuxugörmələr bütün hallarda gerçəkliyin məntiqinə tabe etdirilməsidir.

Tədqiqat işinin nəzərdən keçirdiyimiz fəslinin üçüncü yarımfəsli **“Mifologizm bədii əsərdə personajların davranış normaları, ev mifologemi və doğmalıq-yadlıq motivi”** müstəvisində təhlil edilir. Qeyd olunur ki,  məkan boş halda mövcud olmur, onu çoxsaylı əşyalar təşkil edir. Məkanın əsas xüsusiyyətlərindən biri də onun insanların davranış normaları ilə ifadə olunmasıdır. Mifopoetik məkan müəyyən sahəni ehtiva edir. Bu məkan uzun müddət mövcud olmuş, dəfələrlə parçalanma-birləşmələr nəticəsində müxtəlif hissələrə malik olmuşdur. Məkan situasiyadan asılı olaraq yadlıq-doğmalıq modelinə daxil olan bütün keyfiyyətləri ehtiva edir. Ev doğma məkan olaraq qəbul edilir və müvafiq davranış normaları ilə tənzimlənir. Ev əcdadlardan yadigar qalmış dünyaya baxış və münasibətin əsasının qoyulduğu, formalaşdığı məkandır. “Evin strukturu dünya strukturunu o mənada təkrar edir ki, onun özünün mərkəzi, əyaləti və s. var. Ev müəyyən sərhədlərə malik bir dünya modelidir. Evdə ona təhlükə yaradacaq heç nə yoxdur, burda mövcud olanlar doğma və tanışdır.

Doğmalıq yazıçının mifoloji təfəkkür strukturunun əsas tərkib hissəsidir.  Ənənəvi davranış normaları içərisində bədii məkana uyğun şəkildə təzahür edən davranış normaları və insanlar arasındakı davranış normaları prosesində özünü göstərən doğmalıq-yadlıq problemi xüsusi maraq doğurur. Doğmalıq və yadlıq fərqlilik və oxşarlıqla yanaşı, həm də birlik tələb edir. Bütün hallarda doğmalıqda yadlığa duruş gətirmək üçün kollektivçilik, yəni birlik vacib amilə çevrilir. Doğma qan qohumluğundan, eyni zamanda təfəkkür, inam, adət-ənənə, psixologiya ortaqlığından başqa, həm də ümumi yadlara qarşı mübarizədə fədakarlıqdır (doğma doğmanı, onun maraq və mənafeyini qorumalıdır və s.). Əski mifoloji inamdan gələn bu yazılmamış prinsiplər pozulanda doğmalar arasında yadlaşma qaçılmazdır və yad doğmalaşa bilər.

“Qışqırıq” povestində olan və O. Bukeyevin digər əsərlərində də rast gəlinən yadlıq-doğmalıq problemi özünəməxsus şəkildə, yazıçının yaxından tanıdığı, bildiyi qəhrəmanların həyatı fonunda öz əksini tapmışdır.

O. Bukeyevin “Ardak” hekayəsinin əsas qəhrəmanı Koce atasını itirdikdən sonra həyatı tamamilə dəyişmiş, doğmalarının dönüklüyü

səbəbindən evindən, aulundan ayrı düşərək tənhalığa üstünlük verən və cəmiyyətdən uzaq yaşadığı üçün özünəməxsus həyat tərzinə və düşüncəyə malik bir insan kimi formalaşmışdır.

Mifopoetik təfəkkürdə və real həyatda doğmalıq-yadlıq motivindən düşünülmüş və qeyri-ixtiyari formada çox istifadə olunur. Doğmalıq-yadlıq probleminin təzahür formalarını şərti və ən geniş şəkildə aşağıdakı qruplara ayırmaq mümkündür: qlobal etnoslar, xalqlar, millətlər, dövlətlər, dinlər, sivilizasiyalar arasındakı doğmalıq və yadlıq nəzərdə tutulur; lokal etnos, xalq, millət, bölgə, kənd və s; regional müntəzəm ünsiyyət, təmas, maraq və mənafelərin daha sıx qarşı-qarşıya gəldiyi məkandakı, daxili doğmalıq və yadlıq nəzərdə tutulur.

Etnosdaxili bütün münasibətər ümumilikdə doğmalıq ifadə edir. Eyni etnosun tərkibindəki insanlar bir sıra ortaq xüsusiyyətlərinə görə doğma hesab olunurlar.

Əslində aul doğmadır, ordakı insanlar eyni etnosun, hətta eyni xalqın nümayəndələridir, aulun daxilində isə daha da doğmalar qan qohumları və ailə münasibətləri var. Yad doğma sərhədi hərəkətli və dəyişkəndir, müvafiq situasiyada hər bir doğmanın yada və analoji olaraq əksinə çevrilməsi mümkündür.

Ev əbədi və dəyişməz məkan olaraq bütün zamanları, zamansızlığı və sonsuzluğu özündə ehtiva edir. Keçmiş, indiki zaman və gələcək eyni məkanda-evdə eyni zaman kəsimində yaşanır.

Əslində ev bütün hallarda qəhrəman üçün dünyanın mərkəzi, kosmosun qorunduğu məkandır. Mərkəz isə yüksək sakrallığı ilə seçilən məkandır.

Dissertasiyanın II fəslinin dördüncü yarımfəslində biz **“O.Bukeyev nəsrinin mifoloji xronotopları”**nı nəzərdən keçirməyə cəhd etmişik. O. Bukeyevin mifoloji xronotopunda məkan və zaman problemi də özünəməxsus ifadə planına malikdir. Onun nəsrində məkan konkretdir, hətta dəyişməzdir. Hadisələr eyni bir məkanda başlayıb eyni bir məkanda bitir. Məkan realdır, qəhrəmanların bütün həyatı məhz bu məkanda keçmişdir. Çətinliklər, qəhrəmanların düşdüyü çıxılmaz situasiyalar əsasən açıq məkanda baş verir, obraz dağın başında gecə qarlı havada qalmalı, çovğunda körpünü keçməlidir və s. Çünki O.Bukeyev üçün məkan kainatın başlıca parametrləri və bir-birinə təsir edən iki kateqoruyasıdır. Yəni burada zamanda məkanın bir-birini izləməsi tamamlaması vardır. Onlar birlikdə O.Bukeyev nəsrinin xronotoplarını təşkil edir. Burada ilkin mifik

zaman sonradan baş verəcəklərin hamısı üçün önəmli əhəmiyyət daşıyır.

İlkin olaraq mövcud olan bizim dünya-ilkin dünya modeli kosmosdursa, sonradan yaranan əlavə və dəyişikliklər xaosun yarandığını göstərir. O.Bukeyevdə yad məkan bilinməzlik, qorxunu ehtiva edən bir dünyadır.

O.Bukeyev tənha və tərk edilmiş aul İnsan-Maral üçün kosmosdur. Qəhrəmanın bu mənada tənha aulda yaşamaqdan qorxmayıb aulu tərk etməkdən qorxması xaosa çevrilmənin qarşısını almaq cəhdi kimi görünür.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın yekun olaraq əldə edilmiş elmi-nəzəri nəticələr ümumiləşdirilmişdir.

Dissertasiya XX əsr Qazax nəsrində, O.Bukeyevin yaradıcılığı əsasında mifologizm pobleminin araşdırılmasına həsr olunub. Araşdırma nəticəsində aşkarlanıb ki, Qazax etnik-milli psixologiyanın köklərini və əsasını qədim türk mifoloji inanclar sistemi təşkil edir, bütün dövrlərdə mifologizm qazax etnik-epik düşüncəsinin etnopsixoloji əsası kimi çıxış edir.

Dissertasiyanın birinci fəslində ilk olaraq mifik inam psixologeminin qazax etnosu, qazax etnik-milli-ictimai şüuru və bu şüurun əsas formalarından olan qazax ədəbiyyatı üçün səciyyəvi xarakter daşıması qazax yazılı ədəbiyyatının yaranma tarixi və inkişaf xüsusiyyətləri haqqında tam təsəvvür yaradır. Etnik-milli psixologiyanı bədii şəkildə əks etdirən qazax nəsrində, o cümlədən O.Bukeyev yaradıcılığında mifik inam sistemi aparıcı istiqamətlərdən biridir. Cəmiyyətin uşaqlıq dövrünün məhsulu və erkən ideologiya modeli olan mif özündə ibtidai insanın yaşam şəklini, etiqadlarını, inancını, şəxsiyyətini, varlığını, mövcudluğunu ifadə edir. XX əsrin 70-80-ci illərində Qazax ədəbiyyatında mifologizm meyllərinin geniş vüsət alması mifoloji motivin daha geniş ümumiləşdirmələr aparmağa imkan verməsi ilə bağlı idi. Etnos özünün spesifik davranış normaları, etnoslararası fərqlər, türk mifoloji sistemi üçün xarakterik olan heyvanlar, o cümlədən türk inanclar sistemində totemist görüşləri ifadə edən də maral ("Kerbuqu") və dəvə ("Bura") obrazları dediklərimizi sübut edir. Elçinin "Ağ dəvə" əsərində də mifik obraz kimi çıxış edən Ağ dəvə kökəqayıdışın, milli özünüdərkin, etnik-milli xüsusiyyətlərin, keçmişi, yaddaşı qorumağın simvolu kimi təqdim olunur.

O. Bukeyev yaratdığı bütün insan obrazlarının həyatına, xarakterinə və mənəvi dünyasına tam bələddir. Sənətkar özünəməxsus

çoxmənalı uşaq arxetipi ilə bağlı olan, bədii-estetik və rəmzi məna tutumu daşıyan uşaq obrazlarını ("Aypara ana haqqında hekayət" və "Uşaqlıq illərinin əks-sədası" povestləri) yaratmaqla Çingiz Aytmatovun "Ağ gəmi" əsərindəki adsız uşaq obrazı, burada önə çəkilən mövzunu sanki tamamlayır.

O. Bukeyevin "Qar qızı" və M. Süleymanlının "Şeytan" əsərləri nə mifoloji müştəridən yanaşdıqda buradakı oxşar və fərqli etnik-milli çalarlar üzə çıxarılmışdır.

"Qışqırıq" əsəri təhlil olunarkən biz mifoloji obrazın qorxu mənbəyi kimi təsvir olunduğunu və personajların bu qorxudan çıxmaq cəhdlərinin həyatlarının prioritetinə çevrildiyini görürük.

Dissertasiyanın ikinci fəslində aydınlaşdırılır ki, mifologiya sənətkarın yaradıcılığında iki formada: mifoloji motiv, inam, obraz və əsasında mifoloji inamın dayandığı davranış normalarından cəmiyyət-insan və insan-insan arasındakı münasibətlərin ifadə vasitəsi kimi istifadə olunur. Bütün hallarda obrazlar mifoloji motivlərin normativləri ilə tənzimlənən davranış qaydalarının sərhədləri daxilində yaşayırlar.

"İldırım izi" əsərində mifologizm yazıçının məqsədli şəkildə qoyduğu problemin həlli üçün bədii vasitə kimi çıxış edir, əsərdəki yuxugörmə və ildırım motivi yalnız dünyanı dərk etmək vasitələri deyil, həm də yaradılmış dünyanı, insanı qorumaq vasitələri, xaos-kosmos qarşıdurması olaraq araşdırılır.

Bütün yaradıcılığında məkan müəllifin yaratdığı əsərin strukturuna uyğun olaraq müəyyən dünya modeli kimi formalaşır, situasiyadan asılı olaraq yadlıq-doğmalıq modelinə daxil olan bütün keyfiyyətləri ehtiva edir. Ev mifologemi, evdən kənar məkanlar (dağ, çöl, səhra) və s., O. Bukeyev nəsrinin mifoloji xronotopları müxtəlif aspektlərdən təhlil olunaraq, etnosa məxsus stereotip davranış normaları, xüsusən də yadlıq-doğmalıq münasibətləti, biz və qeyri-biz şüuru "Ardak" əsəri əsasında təqdim olunur.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır.**

1. Mifoloji inam mənəvi-əxlaqi dəyişikliyin göstəricisi kimi (O. Bukeyevin "İldırım izi" əsəri əsasında. "Filologiya məsələləri" jurnalı, №2, Bakı, 2013, səh. 456-461.
2. Epik əsərlərdə qorxu mifoloji motiv kimi (O. Bukeyevin "Qışqırıq" əsəri əsasında). Türk xalqları ədəbiyyatı (Məqalələr toplusu, VI buraxılış). "Elm və təhsil", Bakı: 2013, s. 121-127.
3. O. Bukeyevin nəsrində dəvə obrazı. İlyas Əfəndiyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. "Elm və təhsil", Bakı: 2014, s. 290-297.
4. O. Bukeyevin nəsrində uşaq obrazı və mifoloji inam ("Aypara Ana haqqında hekayət" və "Uşaqlıq illərinin əks-sədası" povestləri əsasında). Firudin bəy Köçərlinin anadan olmasının 150 illik yubileyinə həsr olunan elmi konfransın materialları. 25-26 noyabr 2013-cü il, s. 92-95.
5. Müasir Azərbaycan və Qazax nəsrində şeytan obrazı (M.Süleynanlının "Şeytan" və O.Bukeyevin "Qar qızı" əsəri əsasında). Filologiya məsələləri №9, Bakı: Elm və təhsil, 2014, s. 288-293.
6. Epik növdə doğmalıq-yadlıq problemi (O. Bukeyevin "Ardak" əsəri əsasında"). Filologiya məsələləri №777, Bakı:Elm və təhsil, 2014, s. 418-424.
7. Oralxan Bukeyevin nəsrində mifoloji simvollar. "Ədəbiyyat məcmuəsi", AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri. Xüsusi buraxılış, XXV cild, Bakı:Elm-Təhsil-2014, s. 311-317.
8. Bədii məkan və davranış normaları. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri №4, Bakı: Mütərcim, 2014, s. 97-100.
9. Страх как мифологический мотив в эпическом произведении (на основе повести О.Бокеева «Крик»). Казахский Национальный Университет имени Аль-Фараби, Вестник КазНУ 5(157). Серия Филологическая. Алматы «Казак университети» 2015. s. 111-115.

**Нармин Азад гызы Азадгил**

## Мифологизм в казахской прозе XX века (на основе прозы О.Бокеева)

## РЕЗЮМЕ

Представленная диссертация посвящена изучению мифологизма в казахской прозе XX века, анализируемая на основе творчества крупного прозаика Орахана Бокеева. Проза этого писателя пересыпана мифологическими мотивами, сюжетами и образами. Несмотря на такое качество, творчество О.Бокеева до сих пор не стало предметом специального изучения в азербайджанском литературоведении.

В первой главе «Мифологическое сознание и казахское этническо-национальное мышление» в трех параграфах («Место тюркской мифологической системы веры в казахском этническо-национальном мышлении», «Мифологизм и межобразные отношения в письменной литературе», «Мифологическая вера и страх как чувство психологического состояния») анализу подвергаются произведения О.Бокеева «Ледяная гора», «Человек-Олень», «Противостояние» и др., в которых автором в той или иной степени использованы мифологические мотивы, сюжеты и образы, повлиявшие на всю содержательную ткань его произведений.

Второй главе «Мифологическая вера и психологическое состояние образов» в четырех параграфах («Мифологическая вера и психологическое состояние образов», «Мотивы сновидения и молнии в творчестве О.Бокеева», «Нормы поведения персонажей в художественном произведении, мифологема «дом» и мотив «родного-чужого», «Мифологические хронотопы бокеевской прозы») исследуются основные параметры мифологической веры, присутствия мифологических элементов и мотивов в прозе Бокеева в целевой форме, обращается внимание на сновидения и молнию, указывается на мифопоэтическое пространство в произведениях «След молнии», «Крик», «Ардак» и других в повестях О.Бокеева, выявляются мифологические хронотопы бокеевской прозы,роль О.Бокеева в развитии казахской литературы 70-80-х годов XX века.

**Narmin Azad qızı Azadgil**

**Mythologism in the Kazakh prose of the XX century (based on the prose O. Bokeeva)**

**SUMMARY**

The presented dissertation is devoted to study of mythologism in Kazakh prose of the XX century, being analyzed on the basis of a large creative writer Oralkhan Bokeev. Prose of this writer interspersed with mythological motifs, plots and characters. Notwithstanding this quality, creativity of O. Bokeev has not been yet the subject of special explore in Azerbaijani iterary criticism.

In the first chapter "Mythological consciousness and Kazakh ethnic and national thought" in three paragraph ("Place of the Turkic mythological confidence systems in the Kazakh ethnic and national thought", "Mythologism and meige imaginative relations in written literature," "Mythological confidence and dread as a feeling of psychological condition") are analyzed some works of O.Bokeev as “Ice Mountain", “Man-Deer”, “Confrontation” and other novels in which the author used the mythological motifs, plots and characters that influenced the whole maintenance of his works.

The second chapter, "The mythological confidence and psychological condition of characters" in four paragraphs ("Mythological confidence and psychological condition of characters", "The motifs of the dreaming and levin in the works of O.Bokeev", "Code of Conduct of characters in fiction, the mythologem of "home" and the motif of “cognation - alinetion”, " Mythological chronotopes of the prose of O.Bokeev") investigates the basic parameters of the mythological confidence, the presence of the mythological rudiments and motifs, pays attention to the dreaming and levin, is indicated mythopoetic space in the works as “Trail of Lighting”, “Squall”, “Ardak” and other novels, identifies mythological chronotopes and the main role of the prose of O. Bokeev in the extension of the Kazakh literature in 70-80-ies of XX century.

**Kağız formatı: 60/84 16/1**

**Sayı: 100**

**AMEA-nın mətbəəsində çap olunmuşdur**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

***На правах рукописи***

**НАРМИН АЗАД гызы АЗАДГИЛ**

# МИФОЛОГИЗМ В КАЗАХСКОЙ ПРОЗЕ XX ВЕКА (НА ОСНОВЕ ПРОЗЫ О. БОКЕЕВА)

**5717.01 – Литература тюркских народов**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной**
**степени доктора философии по филологии**

**БАКУ- 2016**